SMART AUDIT

# AUDİTOR RƏYİ

**"Azər-Maya" Açıq Tipli Səhmdar Cəmiyyətinin səhmdarlarına:**

Biz "Azər-Maya" Açıq Tipli Səhmdar Cəmiyyətinin ("Şirkət") 01 yanvar 2016-ci il tarixindən 31 dekabr 2016-ci il tarixinədək Maliyyə Vəziyyəti Haqqında Hesabatın, həmin tarixdə tamamlanan il üzrə Mənfəət və Zərərlər Haqqında Hesabatın, Kapitalda Dəyişikliklər Haqqında Hesabatın və Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabatın audit yoxlamasını aparmışıq.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.
Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Rəy**

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları Şirkətin 01 yanvar 2016-ci il tarixindən 31 dekabr 2016 – ci il tarixinədək maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini, eləcə də kapitalda baş vermiş dəyişikləri bütün əhəmiyyətli aspektlər baxımından Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

SMART AUDİT MMC
Emil Məmmədov
Lisenziya № 080834 AT/115

Bakı, Azərbaycan
05.05.2017

Maliyyə Vəziyyəti Haqqında Hesabat

| | **Qeydlər** | **31.12.2016** | **31.12.2015** |
|---|---|---|---|
| ***Aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | **4** | 168 291,30 | 101 683,67 |
| Debitor borclar | | 299 566,34 | 431 823,59 |
| Mallar və ehtiyatlar | | 1 971 698,87 | 1 273 193,92 |
| Digər qısamüddətli aktivlər | | 298 392,47 | 9 526,92 |
| **Cəmi qısamüddətli aktivlər** | | **2 737 948,98** | **1 816 228,10** |
| Əsas vəsaitlər (qalıq dəyəri ilə) | **5** | 902 313,04 | 829 018,41 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **902 313,04** | **829 018,41** |
| ***AKTİVLƏRİN CƏMİ*** | | **3 640 262,02** | **2 645 246,51** |
| ***Öhdəliklər*** | | | |
| Uzun və qısamüddətli borclar | | 21 477,29 | |
| Dövlət büdcəsinə vergilər üzrə öhdəliklər | | | 9 366,76 |
| Digər öhdəliklər | | 3 126 865,80 | 2 162 825,20 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | | **3 148 343,09** | **2 172 191,96** |
| ***Kapital*** | | | |
| Nizamnamə kapitalı | **1** | 444 340,00 | 444 340,00 |
| Hesabat dövrü üzrə xalis mənfəət | | 18 864,38 | 28 714,55 |
| Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | | 28 714,55 | |
| ***Cəmi kapital*** | | **491 918,93** | **473 054,55** |
| ***CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL*** | | **3 640 262,02** | **2 645 246,51** |

“**Azər-Maya**” ASC – **nin**

**Sədri** _________________ Şahbazov Azər Firudin oğlu

**QEYD:** Qeydlər bu maliyyə hesabatının tərkib hissəsidir.

Mənfəət və Zərərlər Haqqında Hesabat

| | **Qeydlər** | **31.12.2016** | **31.12.2015** |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Malların təqdim edilməsi | | 1 071 108,22 | 541 350,89 |
| İşlərin görülməsi və xidmət | | 0,00 | 0,00 |
| **Cəmi gəlir** | | **1 071 108,22** | **541 350,89** |
| **Vergidən azad olunan gəlir** | | **0,00** | **0,00** |
| **Vergiyə cəlb olunan gəlir** | | **1 071 108,22** | **541 350,89** |
| | | | |
| **Əməliyyat xərcləri** | | | |
| Əmək haqqı və digər ödəmələr | | 195 229,14 | 177 167,18 |
| Sosial sığorta haqqı | | 42 951,41 | 38 976,78 |
| Xammal və materiallar | | 469 001,56 | 70 277,87 |
| Yanacaq | | 43 420,83 | 4 687,55 |
| Enerji | | 222 928,97 | 162 184,65 |
| Su və kanalizasiya | | 10 351,46 | 10 402,48 |
| Qaz | | 48 831,47 | 31 508,89 |
| Ümumi sair xərclər | | 0,00 | 3 180,98 |
| Bank xidməti üçün çəkilən xəclər | | 4 644,44 | 4 883,20 |
| **Cəmi əməliyyat xərcləri** | | **1 037 359,28** | **503 269,58** |
| Torpaq vergisi | | 2 260,00 | 2 260,00 |
| Əmlak vergisi | | 7 908,47 | 7 106,76 |
| **Cəmi xərclər** | | **1 047 527,75** | **512 636,34** |
| **Mənfəət** | | **23 580,47** | **28 714,55** |
| Mənfəət vergisi | | 4 716,09 | 5 742,91 |
| **Xalis mənfəət** | | **18 864,38** | **22 971,64** |

“**Azər-Maya”** ASC – **nin**

**Sədri** _________________ Şahbazov Azər Firudin oğlu

**QEYD:** Qeydlər bu maliyyə hesabatının tərkib hissəsidir.

Kapitalda Dəyişikliklər Haqqında Hesabat

| | Qeyd | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 Dekabr 2014-cü il tarixinə qalıq** | **1** | **444 340,00** | **21 232,95** | **465 572,95** |
| Səhmdarların paylarında artım | | - | - | - |
| Xalis mənfəət | | - | 28 714,55 | 28 714,55 |
| İstifadə edilmiş mənfəət | | - | -21232,95 | -21232,95 |
| **31 Dekabr 2015-ci il tarixinə qalıq** | **1** | **444 340,00** | **28 714,55** | **473 054,55** |
| Səhmdarların paylarında artım | | - | - | - |
| Xalis mənfəət | | - | 18 864,38 | 18 864,38 |
| İstifadə edilmiş mənfəət | | - | - | - |
| **31 Dekabr 2016-ci il tarixinə qalıq** | **1** | **444 340,00** | **47 578,93** | **491 918,93** |

“**Azər-Maya**” ASC – **nin**

**Sədri** ________________ Şahbazov Azər Firudin oğlu

**QEYD:** Qeydlər bu maliyyə hesabatının tərkib hissəsidir.

Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat

| Adı | Qeyd | 31.12.2016 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən əldə olunan pul** | | |
| Müştərilərdən əldə olunan pul /dövriyyə/ | | 1 060 392,07 |
| Müştərilərdən əldə olunan pul /ƏDV/ | | 126 620,52 |
| Təchizatçılara ödənilmiş pul | | -1 428 744,74 |
| Əmək haqqı ödənişləri | | -179 305,91 |
| Bank xərci | | -4 644,44 |
| Sosial Müdafiyə Fonduna olan ödənişlər | | -47 834,00 |
| Vergilər Departaməntinə olan ödənişlər | | -108 954,04 |
| **Əməliyyat fəaliyyətindən əldə olunan xalis pul gəlirləri** | | **-582 470,54** |

| | | |
|---|---|---|
| **İnvestisiya fəaliyyətindən əldə olunan pul** | | |
| Qeyri-maddi aktivlərin alışı | | 0,00 |
| Maddi aktivlərin alışı | | 0,00 |
| **İnvestisiya fəaliyyətindən əldə olunan xalis pul gəliri** | | **0,00** |

| | | |
|---|---|---|
| **Maliyyə fəaliyyətindən əldə olunan pul** | | |
| Məzənnə fərqindən gəlir (ziyan) | | -7 013,54 |
| Təhtəlhesab şəxslərlə pul ödənişi / borc müqaviləsi / | | -325 201,29 |
| Təsisçilərin pul qoyuluşları / borc müqaviləsi / | | 981 293,00 |
| **Maliyyə fəaliyyətindən əldə olunan xalis pul gəliri** | | **649 078,17** |
| **Dövr ərzindəki pul axınları** | | **66 607,63** |

| | | |
|---|---|---|
| **İlin əvvəlinə olan pul vəsaitləri və onların ekvivalentləri** | 4 | **101 683,67** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində olan artma (azalma)** | | **66 607,63** |
| **İlin sonuna olan pul vəsaitləri və onların ekvivalentləri** | 4 | **168 291,30** |

“**Azər-Maya**” ASC – **nin**

**Sədri** __________________ Şahbazov Azər Firudin oğlu

**QEYD:** Qeydlər bu maliyyə hesabatının tərkib hissəsidir.

**Qeyd 1: Fəaliyyət prinsipləri**

‹‹Azər-Maya» Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 10.06.1997-ci il tarixdə D-2125 N-si ilə qeydiyyata alınmışdır. Cəmiyyətin Nizamnamə kapitalını 444,320.00 manat olmaqla 222160 ədəd (bir ədədinin nominal qiyməti 2,00 manat) səhm təşkil edirdi.

10.11.2016 tarixinə Milli Depozit Mərkəzi QSC – nin "Qiymətli kağız sahiblərinin reyestri" nə əsasən səhm kapitalını 444,340.00 manat olmaqla 222170 ədəd (bir ədədinin nominal qiyməti 2,00 manat) səhm təşkil edirdi.

| **Sahiblərin olduğu qiymətli kağızlar barədə məlumat** | | | |
|---|---|---|---|
| **№** | **A.S.A** | **Ümumi miqdarı** | **% nisbəti** |
| 1 | Mirzəyev Hüseyn Müşfiq oğlu | 217708 | 97,9916 |
| 2 | Digərləri | 4462 | 2,0084 |
| **CƏMİ** | | **222170** | **100,0000%** |

*1 ədəd qiymətli kağızın nominal dəyəri 2,00 manat təşkil edir.

Təşkilatın hüquqi ünvan: Bakı şəhəri, Dərnəgül qəs., 3105 – ci məhəllə

**Qeyd 2: Hesabatların tərtib edilməsinin əsasları**

**Mühasibat işi və hesabatların tərtib edilməsinin əsasları**

Təşkilat daxili nizamnaməyə əsasən ilkin mühasibat sənədlərini saxlamalıdır. Hazırkı maliyyə hesabatları həmin sənədlər əsasında hazırlanmışdır. Bu maliyyə hesabatları həmin mühasibat qeydləri əsasında Beynəlxalq Mühasibat Uçotu Standartlarına (BMUS) uyğun tərtib edilmişdir.
Hesabatlar 01.01.2016-ci il tarixindən 31.12.2016-cı il tarixinə kimi olan müddəti əhatə edir. Məbləğlər Azərbaycan manatı ilə (AZN) göstərilmişdir.

**Qeyd 3: Mühasibat uçotunun mühüm prinsipləri**

**Əsas ölçü vahidi**

BMUS-un tələblərinə müvafiq olaraq maliyyə hesabatlarının hazırlanması zamanı menecment hər il üzrə aktiv və passivlərini, eləcədə gəlir və xərclərinin qiymətləndirilməsini (reallığa uyğunluğunu) aparmalıdır. Lakin, bu qiymətləndirilmə faktiki əldə edilən nəticələrdən fərqli ola bilər. Qiymətləndirilmə əsasən verilmiş əmlakın icarə dəyəri üzrə ehtimal edilən itkilər və maliyyə vəsaitləri üzrə aparılmalıdır.

**Əsas vəsaitlər və amortizasiya**

Təşkilatın əsas vəsaitləri maliyyə vəziyyəti haqqında hesabatda amortizasiya çıxılmaqla qalıq dəyərində qeydə alınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə “Təşkilatın” banklardakı hesablaşma hesablarında və kassasında olan nağd pul vəsaitləri üzrə pul vəsaitləri daxildir.

**Qeyd 4: Əsas vəsaitlər (qalıq dəyəri ilə)**

| N | Növ | 31.12.2014-cü il tarixə qalıq | 2015-ci il ərzində mədaxil | 2015-ci il ərzində məxaric | 2015-ci il ərzində aşınma | 31.12.2015-ci il tarixə qalıq |
|---|---|---|---|---|---|---|
| 1 | Bina və tikililər | 498 636,90 | | | | 498 636,90 |
| 2 | Avadanlıqlar | 207 423,73 | 53 322,04 | | | 260 745,77 |
| 3 | Nəqliyyat vastələri | 45 542,42 | 15 254,24 | | | 60 796,66 |
| 4 | Digər əsas vəsaitlər | 8 839,08 | | | | 8 839,08 |
| | **YEKUN** | **760 442,13** | **68 576,28** | **0,00** | **0,00** | **829 018,41** |

| N | Növ | 31.12.2015-ci il tarixə qalıq | 2016-ci il ərzində mədaxil | 2016-ci il ərzində məxaric | 2016-ci il ərzində aşınma | 31.12.2016-ci il tarixə qalıq |
|---|---|---|---|---|---|---|
| 1 | Bina və tikililər | 498 636,90 | | | | 498 636,90 |
| 2 | Avadanlıqlar | 260 745,77 | 64 294,63 | | | 325 040,40 |
| 3 | Nəqliyyat vasitələri | 60 796,66 | 9 000,00 | | | 69 796,66 |
| 4 | Digər əsas vəsaitlər | 8 839,08 | | | | 8 839,08 |
| | **YEKUN** | **829 018,41** | **73 294,63** | **0,00** | **0,00** | **902 313,04** |